## Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər xiyabanını ziyarət ediblər





Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının nümayəndələri Şəhidlər xiyabanını ziyarət ediblər.

Xiyabana gələn partiya nümayəndələri ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, onların məzarları üzərinə gül dəstələri düzüblər.

## YAP Gəncə şəhər təşkilatında Yeni Azərbaycan Partiyasının ildönümü qeyd edilib



Hər il Yeni Azərbaycan Partiyasının ildönümlərini təntənəli şəkildə yüksək əhval-ruhiyyə ilə qeyd edən YAP Gəncə şəhər təşkilatı bu il də ənənəsinə sadiq qalıb. Doğma partiyamızın yaranmasının 28 illiyi ilə əlaqədar YAP Gəncə şəhər təşkilatı tərəfindən ağacəkmə kampaniyası və "Tariximizə möhtəşəm imzalar yazan 28 il" adlı onlayn videokonfrans təşkil edilib.

Təşkilatın partiya fəallarının, ilk partiya təşkilat sədrlərinin və gənclərin iştirak etdiyi aksiya çərçivəsində simvolik olaraq 28 ədəd Eldar şamı ağacı əkilib. Aksiya iştirakçıları ağac əkməklə yanaşı, təmizlik-abadlıq işləri aparıb, ərazini alaq otlarından, daşlardan təmizləyib, yeni əkilən ağacları suvarıb, əvvəllər basdırılan tinglərə aqrotexniki qaydada qulluq göstəriblər.

Yeni Azərbaycan Partiyasının ildönümünün qeyd edilməsi "Tariximizə möhtəşəm imzalar yazan 28 il" adlı onlayn videokonfransla davam edib.

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər




**Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabana gedərək müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əliyevin məzarını ziyarət edib, önünə əklil və gül dəstələri qoyublar.**



Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Tarixin yetişdirdiyi nadir şəxsiyyətlərdən olan ümummilli lider Heydər Əliyevin parlaq siyasi zəkası sayəsində iki əsrin qovuşuğunda Azərbaycan öz milli mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoyub.

Ulu öndər Heydər Əliyevin zəkası bütün maneələri aşaraq və qarşıya çıxan çətinliklərə baxmayaraq, Azərbaycanı tənəzzüldən, hərc-mərclikdən, vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsindən uğurla çıxarıb, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırıb.

Əbədiyaşar liderimiz Heydər Əliyev olduqca mürəkkəb bir dövrdə xalqın xidmətində dayandığını nümayiş etdirməklə yanaşı, həm də Azərbaycan Respublikasının Konstitusiyası və qanunvericiliyi çərçivəsində, özünün Nizamnaməsi və Proqramı əsasında fəaliyyət göstərən, öz sıralarında ölkəmizdə hüquqi dövlət, sabit və sosialyönümlü iqtisadiyyat, vətəndaş cəmiyyəti qurmaq ideyalarını qəbul edən vətəndaşları birləşdirən sağ mərkəzyönümlü siyasi partiya olan Yeni Azərbaycan Partiyasının banisidir.

Ümummilli Liderin yaratdığı Yeni Azərbaycan Partiyası bu gün sıralarında 760 mindən çox üzvü birləşdirərək ölkənin avanqard siyasi qüvvəsi kimi respublikamızda YAP-ın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən nəhəng quruculuq proseslərinin önündə gedir.

## Ağcabədidə YAP-ın yaranması münasibətilə videokonfrans

**YAP Ağcabədi rayon təşkilatı Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümü münasibətilə videokonfrans keçirmişdir.**



Videokonfransda YAP ərazi ilk təşkilat sədrləri, YAP Ağcabədi rayon təşkilatının Qadınlar Şurası, Gənclər Birliyinin üzvləri iştirak etmişlər.

Videokonfransı YAP Ağcabədi rayon təşkilatının sədri Rövşən Əhmədov açaraq konfrans iştirakçılarını Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümü və Erməni işğalçıları üzərində qazanılmış Qələbə münasibətilə təbrik etmişdir.

R.Əhmədov çıxışında bildirmişdir ki, Azərbaycan xalqı 30 ilə yaxındır ki, işğalda olan Qarabağ torpaqlarının azad edilməsini səbirsizliklə gözləmişlər. Bu müddət ərzində istər ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə, istərsə də Ulu Öndərin siyasi varisi cənab Prezident İlham Əliyevin 2003-cü ildən başlayaraq ardıcıl olaraq həm siyasi müstəvidə, həmdə ordu quruculuğu sahəsində gördüyü işlər öz bəhrəsini verdi, addım-addım bizi qələbəyə çatdırdı.

Sentyabrın 27-də erməni təcavüzünə cavab olaraq başlanan və cəmi 44 gün davam edən Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı böyük bir tarix yazdı. İqtidar-Xalq-Ordu birliyi öz bəhrəsini verdi. Hamı yumruq kimi birləşdi, hər kəs Qələbəyə öz töhfəsini verdi və möhtəşəm Qələbə qazanıldı. Bu qələbənin qazanılmasında şəhidlik zirvəsinə yüksələn əsgər və zabitlərimiz əsl qəhrəmanlıq göstərdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralılara şəfa versin. Bu qələbənin qazanılmasında qardaş Türkiyənin Azərbaycana göstərdiyi siyasi dəstək də qələbəmizi şərtləndirən səbəblərdən biridir.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev əsl sərkərdə kimi hərəkət edərək xalqı və ordunu ruhlandıraraq, öz ardınca apardı, öz xalqına güvənərək demək olar ki, dünyanın böyük güc mərkəzləri ilə siyasi meydanda təkbətək döyüşdü, ona qarşı edilən təzyiq, hədə-qorxulara mətanətlə sinə gərdi və bütün dünyaya sübut etdi ki, Azərbaycanın mübarizəsi haqq mübarizəsidir və Qarabağ torpağı Azərbaycanın əzəli torpaqlarıdır.

R.Əhmədov çıxışında onu da vurğuladı ki, Vətən müharibəsi dövründə Yeni Azərbaycan Partiyası da böyük bir siyasi qüvvə kimi öz iradəsini ortaya qoydu. 50 siyasi Partiyanın birgə bəyanatında, eyni zamanda ayrılıqda YAP adından beynəlxalq təşkilatlara, siyasi partiyalara müraciətlər edildi, Azərbaycan həqiqətləri ni dünya birliyinə çatdırdı.

Konfransda YAP Ağcabədi rayon təşkilatının Qadınlar Şurasının sədri Radə Qafarova, YAP Hacıbədəlli ərazi ilk təşkilatının sədri Feyzulla Feyzullayev çıxış edərək tədbir iştirakçılarını təbrik etdilər və mövzu ətrafında öz mülahizələrini bölüşdülər.

Konfransda ilk təşkilatlara qarşıda duran vəzifələr barədə tövsiyələr verildi.

## YAP Səbail rayon təşkilatında Azərbaycanın Vətən Müharibəsindəki şanlı qələbəsi və YAP-ın yaranmasının 28-ci ildönümü münasibətilə konfrans keçirilib



YAP Səbail rayon təşkilatında Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun İkinci Qarabağ Müharibəsində qazandığı Şanlı qələbələr və Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü münasibətilə videoformatda konfrans keçirildi. Konfransda Rayon Şurası və İdarə Heyətinin üzvləri, partiya veteranları və fəal gənclər iştirak etdilər.

## YAP Şabran rayon təşkilatının gəncləri Vətən müharibəsində yaralanmış döyüşçüləri ziyarət ediblər

Yeni Azərbaycan Partiyasının Şabran rayon təşkilatı Vətən müharibəsində şəhid olmuş hərbçilərin ailələrini, eləcə də döyüşlərdə yaralanmış şəxsləri daim diqqət mərkəzində saxlayır.



Belə ki, rayon təşkilatının fəalları bu kateqoriyadan olan rayon sakinləri ilə mütəmadi olaraq görüşür, onlara maddi və mənəvi dəstək göstərirlər.

YAP Şabran rayon təşkilatının gənc fəalları növbəti dəfə Vətən müharibəsində yaralanmış döyüşçülər Ağayev Elvi Rəcəb oğlunu, Hacıyev Şahin Vahid oğlunu və Məmmədov Sənan Ramazan oğlunu ziyarət ediblər.